Ömər ibn Muhəmməd əs-SUBEYL

# DİLİ HARAMDAN QORUMAQ

www.islamevi.az

**Bu kitab, DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN 27/09/2006 tarixli № DK – 377d saylı razılığı ilə nəşr edilmişdir.**

**Kitabın müəllif hüquqları qorunur.**

# DİLİ HARAMDAN QORUMAQ

İnsanı yaradan və ona açıqlamağı öyrədən ALLAH`a həmd olsun! Ona həmd və şükr edirəm! O, əzaların günahlardan və asilikdən qorunmasını əmr etmişdir. Şəhadət edirəm ki, ALLAH`dan başqa haqq ilah yoxdur. O, Təkdir və şəriki yoxdur. Şəhadət edirəm ki, Peyğəmbərimiz Muhəmməd ﷺ Onun qulu və insanlar arasından seçərək üstün etdiyi elçisidir. ALLAH ﷻ Ona, təmiz əhli-beytinə, fəzilətli səhabələrinə, tabiinə və onlara yaxşılıqla tabe olanlara gecə və gündüz bir-birini təqib etdikcə salavat və salam etsin!.

Bundan sonra.. Ey müsəlmanlar! ALLAH`-dan layiqincə qorxun! Çünki ALLAH`dan layiqincə qorxmaq, bütün xeyirlərin toplandığı yerdir. Səadət və qurtuluş yoludur. Nəfslər təqva ilə təmizlənir, dillər doğru yola düşür və qəlblər onunla islah olur. Etdiyiniz və söylədiyiniz hər bir şeydə ALLAH`dan ﷻ layiqincə qorxun! ALLAH ﷻ belə buyurur:

***"ALLAH\`a tərəf qaytarılacağınız gündən qorxun!*** *(O gün)* ***hər kəsə gördüyü əməlin əvəzi veriləcək və*** *(haqsız yerə)* ***zülm olunmayacaqdır!"***[1]

ALLAH\`ın qulları!. İslam, hökmləri kamil olan, qanunları hər şeyi əhatə edən bir dindir. İnsanları əxlaqın və ədəbin ən yaxşısına yönəltmişdir. Pis davranışlardan və çirkin sözlərdən çəkindirmişdir. İslamın yönləndirdiyi fəzilətlərdən və ədəbdən biri də danışma ədəbidir. Gözəl danışmaq və dili çirkin və boş sözlərdən qorumaqdır. ALLAH ﷻ adəm oğlunu, ağıl və düşüncəsini açıqlama neməti ilə heyvanlardan üstün etmiş və şərəfləndirmişdir. Bu nemətlə insan, ALLAH\`ın ﷻ yaradıcı olduğunu görür. ALLAH ﷻ belə buyurur:

---

1 əl-Bəqərə surəsi, 2/281.

***"Məgər insan (****A`s ibn Vail, yaxud U`beyy ibn Xaləf****) onu nütfədən yaratdığımızı görmədimi ki, birdən-birə (****RƏBB`inə****) açıq bir düşmən kəsilmişdir."***[2]

Bu nemətin haqqı şükr etmək və nankorluqdan çəkinməkdir. ALLAH ﷻ üçün dili haramdan və günahlardan qorumaqdır. Çünki dil, əzaların ən təsirlisi və ən təhlükəlisidir. ALLAH rizası üçün və insanlara faydalı yerlərdə istifadə edilsə, sahibinin dünyada və axirətdə müvəffəqiyyətli olmasının və xoşbəxtliyinin ən böyük səbəbi olar. ALLAH`ın ﷻ qəzəbinə yol açacaq və qullara zərər verəcək yerlərdə istifadə edilsə, sahibinə ən böyük günahları və zərərləri gətirər. Buna görə İslam, dilə böyük əhəmiyyət vermişdir. RƏBBimiz ﷻ Quranda və Peyğəmbərlərin Seyyidinin ﷺ sözləri

2 Yasin surəsi, 36/77.

ilə, dili haramdan qorumağa, gözəl danışmağa və pis sözlərdən çəkinməyə həvəsləndirmişdir.

ALLAH ﷻ belə buyurur:

*"(Ya Rəsulum!)* ***Bəndələrimə de: Gözəl sözlər söyləsinlər! Şeytan onların arasına fitnə-fəsad sala bilər. Həqiqətən, şeytan insanın açıq-aşkar düşmənidir!"***[3]

ALLAH ﷻ, iman sahiblərini və təqva əhlini vəsf edərkən onların boş və batil sözlərdən üz döndərdiklərini bildirir və belə buyurur:

***"Həqiqətən, möminlər nicat tapmışlar!*** *(Cənnətə nail olmaqla mətləblərinə çatıb əbədi səadətə qovuşmuşlar!)* ***O kəslər ki, namazlarında müti olub*** *(Ona)* ***boyun əyərlər!*** *(ALLAH`ın qarşısında kiçilərlər!)* ***O kəslər ki, lağlağıdan*** *(lüzumsuz şeylərdən, qadağan olunmuş əməllərdən)* ***üz döndərərlər!"***[4]

---

3 əl-İsra surəsi, 17/53.

4 əl-Muminun surəsi, 23/1-3.

ALLAH ﷻ belə buyurur:

***"Onlar boş** (yersiz) **bir söz eşitdikləri zaman ondan üz çevirib: "Bizim əməllərimiz bizə, sizin əməlləriniz də sizə aiddir.*** (*Hərə öz əməlinə cavabdehdir*)***. Sizə salam olsun! Biz cahilləri*** (*cahillərlə yoldaşlıq etmək, onların söz-söhbətinə qulaq asmaq, sonra da onlarla çənə-boğaz olmaq*) ***istəmirik!" - deyirlər."***[5]

Dili günahlardan və haramdan qorumaq, dində doğruluğa və kamil imana çatmağın ünvanıdır. Rəsulullah ﷺ belə buyurur:

*"Qəlbi doğru olana qədər qulun imanı doğru olmaz. Dili doğru olana qədər də qəlbi doğru olmaz."*[6]

Hətta, insanın bütün əzaları əyrilik və doğruluq baxımından dilə bağlıdır. Əbu Sə`id

5 əl-Qasas surəsi, 28/55.
6 Əhməd İbn Hənbəl.

əl-Xudri ﷺ Rəsulullahın ﷺ belə buyurduğunu rəvayət edir:

*"Adəm oğlu səhərə çatdıqda, bütün əzaları dilə səslənib: "Bizim haqqımızda ALLAH`dan qorx! Çünki biz sənə tabeyik. Sən doğru olsan biz də doğru olarıq, sən azsan biz də azarıq!" deyirlər."*[7]

İmam Nəvəvi deyir ki: "Yəni dilə itaət edib, ona boyun əyərlər."

İnsanın, dilini qoruması və az danışması nəfsinin təmiz olmasının və müdrikliyinin işarəsidir. Rəvayət edilən hikmətli sözlərdən birində belə deyilir: "Ağıl kamil olarsa söz azalar." Hikmət sahibi insanlardan biri belə deyir: "İnsanın danışması, fəzilətinin bəyanı və ağlının tərcüməçisidir. Gözəl olan sözə yönəlin və onun azı ilə kifayətlənin!"

Şüurlu müsəlmanı ağlı, gözəl və yerinə görə danışmağa sövq edər. Onu imanı buna yönəldir. Danışmaq lazım deyilsə susmağı se-

7 ət-Tirmizi.

çər və günahdan qorunmaq üçün özünü saxlayar. Rəsulullahın ﷺ tövsiyəsi ilə hərəkət edər:

*"Kim ALLAH`a və axirət gününə iman edirsə ya xeyir söyləsin ya da ki, sussun!"*[8]

Ağlından keçəni gözəl bir şəkildə ifadə etmək uca bir ədəb və dəyərli bir əxlaqdır. ALLAH ﷻ keçmiş ümmətləri buna yönləndirmiş və onlardan bunun üçün söz almışdır.

ALLAH ﷻ belə buyurur:

***"Yadınıza gətirin ki, Biz bir zaman İsrail oğullarından: "ALLAH`dan qeyrisinə ibadət etməyin, valideynlərinizə, yaxın qohumlarınıza, yetimlərə, yoxsullara ehsan** (yaxşılıq, kömək) **edin, insanlarla xoş danışın, namaz qılın, zəkat verin!" - deyə əhd-peyman aldıq. Sonra, az bir qisminiz müstəsna olmaqla, əhdinizdən döndünüz, çünki siz** (İsrail övladı haqdan) **üz döndərənsiniz."***[9]

---

8 əl-Buxari. Muslim.

9 əl-Bəqərə surəsi, 2/83.

Gözəl söz, dost və ya düşmən olsun hər insanla gözəl nəticə verir. Dostla gözəl danışmaq, sevginin və dostluğun davam etməsini təmin edər. Düşmənlə gözəl danışmaq isə qəlblərdəki kini, nifrəti, qəzəbi yox edər və düşmənçiliyi söndürər. ALLAH ﷻ belə buyurur:

***"Yaxşılıqla pislik eyni ola bilməz!** (Ey mömin kimsə!)* ***Sən** (pisliyi)* ***yaxşılıqla dəf et!** (Qəzəbə səbrlə, cəhalətə elmlə, xəsisliyə comərdliklə, cəzaya bağışlanmaqla cavab ver!)* ***Belə olduqda aranızda düşmənçilik olan şəxsi, sanki yaxın bir dost görərsən! Bu** (xislət)* ***yalnız** (dünyada məşəqqətlərə)* ***səbr edənlərə verilir və yalnız böyük qismət** (savab, fəzilət)* ***sahiblərinə əta olunur!"***[10]

Ey müsəlmanlar!.. Dilin böyük fəlakətləri vardır. Lazımsız və boş danışmağın bir çox zərərləri vardır. Möminlərin əmiri Ömər

---

10 Fussilət surəsi, 41/34-35.

ibn əl-Xəttab ﵁ bundan çəkindirərək belə demişdir: "Çox danışanın xətası da çox olar. Xətası çox olanın həyası azalar. Həyası azalanın vərası (ALLAH qorxusu) azalar. ALLAH qorxusu azalanın qəlbi ölər." Keçmiş alimlərdən biri belə deyir: "İnsanların ən bədbəxti və müsibəti ən böyük olanı, tələskən bir dil və tələskənliklə hərəkət edən bir qəlbə sahib olan insandır." Boş danışmaqdan uzaq durmaq, dini və dünyəvi baxımdan başqalarına faydalı olmayan şeylərdən dili qorumaq bəsirət və müdriklikdəndir. Rəsulullah ﷺ ümmətinə bunu tövsiyə etmiş və buna çağırmışdır. Rəsulullah ﷺ dilini işarə edərək

*"Buna sahib ol!"*

buyurur. Muaz ibn Cəbəl ﵁ belə deyir: "Ey ALLAH`ın Rəsulu! Bizlər danışdıqlarımız haqqında hesab verəcəyik?" Bunun üzərinə Rəsulullah ﷺ belə buyurur:

*"Anan səni itirsin, ey Muaz! İnsanlar, dilləri ilə əldə etdiklərindən başqa bir səbəblə cəhənnəmə üzləri üstə atılarlarmı?"*[11]

Süfyan əs-Səqafi belə rəvayət edir: "Ey ALLAH`ın Rəsulu! Mənim üçün ən çox qorxduğun şey nədir?" dedim. Rəsulullah ﷺ öz dilini tutaraq *"Bu"* buyurdu."[12]

Buna görə, bu ümmətin keçmiş alimləri və ən seçkin insanları dilin təhlükəsindən qorxardılar və olduqca çox çəkinərdilər. Əbu Bəkr رضي الله عنه dilini çıxarar və belə deyərdi: "Bu, məni pis yerlərə aparar." Abdullah ibn Məsud رضي الله عنه belə deyir: "Ondan başqa haqq ilah olmayan ALLAH`a and olsun ki, yer üzündə dildən başqa uzun müddət həbs edilməyə ehtiyacı olan bir şey yoxdur." Ata ibn Əbi Rabah رضي الله عنه da belə deyir: "Sizdən biri, gündüz doldurduğu səhifə açıldığında içindəki bir çox şe-

11 ət-Tirmizi.
12 ət-Tirmizi.

yin dini və dünyası ilə əlaqəsiz olmasından utanmaz mı?"

Ey ALLAH`ın qulları! Dil, təqva onu nizama salmasa şeytanın əlində sərbəst bir ipdir. Şeytan onunla bu dilin sahibini istədiyi kimi yönləndirər. İnsan ağlına gələn hər şeyi söyləmək üçün dilini sərbəst edərsə, dili onu fəlakətə və həlaka aparar. Onu, dedi-qodu və qeybət, yalan və iftira, pis və çirkin söz, ALLAH`ın ﷻ qullarına qarşı ədəbsiz davranmaq kimi böyük günahlara salar. Hətta bəzilərinin dili başqalarının şərəfini yaralayan bir bıcaq kimi olmuşdur. Onlar ALLAH`ın ﷻ qullarını dolayar və onları alçaldarlar. Eyiblərini sayar və qüsurlarını açıqlayarlar. İnsanları ittiham edər, yalan danışar və şayiələr yayarlar. Bunu etməyə onlara nə dilləri, nə kişilikləri, nə də həyaları mane olar. Sanki ALLAH`ın ﷻ bu sözünü eşitməmişlər:

***"Dediyi hər sözü*** *(yazmaq üçün)* ***onun yanında hazır durub gözləyən*** *(iki mələk)* ***vardır!"***[13]

Bu şəxslər, Rəsulullahın ﷺ bu sözünə görə nə vəziyyətdədirlər? O ﷺ, belə buyurur:

*"Mömin, (insanları) qaralayan və çox lənət edən, pis söz söyləyən və söyüş söyən bir kimsə deyildir."*[14]

Digər bir hədisdə Rəsulullah ﷺ buyurur:

*"Şübhəsiz qul, ALLAH`ı qəzəbləndirəcək bir söz desə və ona əhəmiyyət verməsə, o söz səbəbi ilə cəhənnəmə atılar."*[15]

Üzərində elm və doğruluq görüntüsü olan bir şəxs bunu etsə bəla daha da böyük olar. Pis və çirkin sözlər söyləyər. Heç bir fə-

---

13 Qaf surəsi, 50/18.
14 ət-Tirmizi. O bu hədisin *"həsən"* olduğunu deyir.
15 əl-Buxari.

zilət sahibinin fəzilətini və dəyərli insanın dəyərini buraxmaz. Bir dil sürüşməsindən və ya qələm xətasından və ya şəxsi bir səbəblə ölü və ya diri, heç düşünmədən onları mühakimə edir. Bəzən səbəb bunlardan heç biri olmaya bilər. Sadəcə kin və ifrat onu buna sövq edir. Dini duyğuları və ALLAH qorxusu ona mane ola bilməsə ağıl və əxlaq da onu bundan çəkindirməz?! Öz nəfsinin əyib və qüsurlarının çoxluğunu bilməsi də onu bundan uzaqlaşdırmaz?! Keçmiş alimlərdən biri, insanların əleyhinə danışan bir şəxsin söhbətini eşitdikdə ona belə deyir: "İnsanların eyiblərini çox göstərməyin ilə sənin eyiblərinin çoxluğuna qərar verdik."

Ey ALLAH`ın qulları! ALLAH`dan ﷻ layiqincə qorxun! Dillərinizi və digər əzalarınızı ALLAH`ın ﷻ haram etdiyi şeylərdən qoruyun! Daima ALLAH`ın ﷻ bu sözünü xatırlayın:

***"Ey iman gətirənlər! ALLAH`dan qorxun və doğru söz söyləyin!*** (*Əgər belə etsəniz, ALLAH*) ***əməllərinizi islah edər və günahlarınızı bağışlayar. Hər kəs ALLAH`a və Peyğəmbərinə itaət etsə, böyük bir səadətə*** (*Cənnətə*) ***nail olar."***[16]

ALLAH ﷻ məni və sizi uca Quran və Peyğəmbərimizin ﷺ sünnəsi ilə faydalandırsın! Bu sözümü söyləyib, ALLAH`dan ﷻ özüm üçün, sizin üçün və bütün müsəlmanlar üçün hər cür günahdan bağışlanma diləyirəm! Sizlər də Ondan ﷻ bağışlanma diləyin! Şübhəsiz O ﷻ çox Bağışlayan və Mərhəmət edəndir!

Mübarək və təmiz bir həmd ilə sevdiyi və razı olduğu şəkildə RƏBB`imə çoxlu həmd edirəm! Ona həmd edir, böyük nemətləri və sonsuz ehsanı üçün Ona şükr edirəm! Şəhadət edirəm ki, ALLAH`dan başqa haqq ilah yoxdur. O, Təkdir və şəriki yoxdur Şəhadət edirəm ki, Muhəmməd ﷺ Onun qulu və Rəsu-

---

16 əl-Əhzab surəsi, 33/70-71.

ludur. Seçdiyi peyğəmbər və üstün etdiyi dostudur. ALLAH ﷻ Ona, əhli-beytinə, hidayət öndərləri və qaranlığı aydınladan işıq mənbəyi səhabələrinə, onların yolundan gedən və izlərini təqib edənlərə çoxlu salavat və salam etsin!

Bundan sonra... Ey ALLAH`ın qulları! Günümüzdə, cəmiyyətlərin vəziyyətini incələyən insanlardan bir çoxunun toplantılarda və konfranslarda lazımsız söhbətlərlə məşğul olduğunu görürsən. Nəfslərin meyl etdiyi bu söhbətlər müxtəlif yayın orqanları vasitəsilə nəql edilir. Bunlara qulaq asılır və insanlar bu söhbətlərdən təsirlənirlər. Nəticədə heç bir fayda əldə edə bilməzlər. Hətta çoxu dünyası və axirəti üçün zərərlə dönər. Bütün bunlar İslamın metodundan və ədəbindən deyildir. Çünki İslam, boş və lazımsız danışmağı, dəyərsiz işlərlə məşğul olmağı xoş qarşılamır. Dəyərli və fəzilətli işləri bəyənir. ALLAH ﷻ belə buyurur:

***"Onların gizli söhbətlərinin çoxunda xeyir yoxdur. Xeyir ancaq sədəqə verməyi, yaxud yaxşılıq etməyi və ya insanlar arasında sülh yaratmağı əmr edən kimsənin söhbətindədir. ALLAH`ın razılığını qazanmaq üçün belə işlər görən kimsəyə*** (*axirətdə*) ***böyük mükafat verəcəyik!"***[17]

ALLAH`dan layiqincə qorxun və İslamın dəyərlərinə möhkəm sarılın! İman əhlinin ədəbi ilə ədəblənin! Dillərinizi haramdan qoruyun! Dilinin şərindən qorunan böyük bir zərərdən qurtulmuşdur. Dilini xeyirdə, ibadətdə və mübah olan söhbətlərdə istifadə edən, doğruluğa və kamilliyə müvəffəq edilir. Bu, ALLAH`ın ﷻ dilədiyinə verdiyi bir lütfdür. ALLAH ﷻ böyük lütf sahibidir. ALLAH`ın qulları! ALLAH`ın əmr etdiyi kimi rəhmət və

---

17 ən-Nisa surəsi, 4/114.

hidayət Peyğəmbərinə ﷺ xeyir-dua və salam edin! ALLAH عز وجل belə buyurur:

***"Həqiqətən, ALLAH və Onun mələkləri Peyğəmbərə salavat göndərirlər*** (*xeyir-dua verirlər*)***. Ey iman gətirənlər! Siz də ona salavat göndərib*** (*onun üçün salavat deyib*) ***layiqincə salamlayın!"***[18]

***Ömər ibn Muhəmməd əs-SUBEYL***
***04.11.1422 hicri***

---

18 əl-Əhzab surəsi, 33/56.